


# Qurucu Prezident, Müzəffər Ali Baş Komandan

**Prezident İlham Əliyev tariximizə Zəfər paradını qəbul etmiş Müzəffər Ali Baş Komandan kimi düşüb. Onun rəhbərliyi altında şanlı ordumuzun 2020-ci ildə 44 günlük Vətən müharibəsində fədakarcasına və qəhrəmancasına qazandığı böyük Zəfər və ərazilərimizin 30 illik işğaldan azad edilməsi Azərbaycan tarixinin ən qürurlu səhifəsidir. Bu 1993-cü ildə Ulu Öndər, Ümummilli Lider Heydər Əliyevin uçurumun astanasında olan Azərbaycana qayıdışı ilə başlayan və İlham Əliyevin ləyaqətlə davam etdirdiyi yolun məntiqi nəticəsi idi. 44 günlük Vətən müharibəsi, onun kulminasiya nöqtəsi hesab olunan Şuşanın azad edilməsi və böyük Zəfərimiz xalqımızın milli qürurunu və tarixi ədaləti bərpa etdi.**

Prezident, Müzəffər Ali Baş Komandan 10 dekabr 2020-ci ildə Zəfər paradını qəbul etdi. Bu paradda türk mehmetcikləri də Azərbaycan əsgərləri ilə çiyin-çiyinə addımladı. Eyni zamanda Zəfər paradında qardaş Türkiyə Cümhuriyyətinin Prezidenti Rəcəb Tayyib Ərdoğan da iştirak etdi. Bu hadisə tarixi baxımdan məntiqlidir, çünki vaxtilə Nuru Paşanın komandanlığı altında türk əsgərləri paytaxt Bakının və digər ərazilərimizin bolşeviklərin dəstəklədiyi erməni daşnak dəstələrindən azad olunmasında qəhrəmancasına iştirak etmiş, 16 sentyabr 1918-ci ildə isə Azərbaycan və türk əsgərləri qələbə münasibətilə rəsmi keçid etmişlər. Rus tarixçisi Andrey Zubov 10 dekabr 2020-ci il Zəfər paradını və orada Azərbaycan və Türkiyə Prezidentlərinin birgə iştirakını yeni bir geosiyasi ittifaqın - Azərbaycan-Türkiyə müttəfiqliyinin doğuşu kimi xarakterizə etmişdi. Zubov haqlı idi. Çox keçmədi ki, Azərbaycan və Türkiyə Prezidentləri İlham Əliyev və Rəcəb Tayyib Ərdoğan 15 iyun 2021-ci ildə Şuşa şəhərində iki ölkə arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsini imzaladılar. İki qardaş ölkənin - iki təbii müttəfiqin müttəfiqliyi rəsmiləşdirildi.

Bu böyük Zəfərdən sonra qarşımızda duran əsas vəzifələrdən biri işğaldan azad edilmiş və işğal zamanı viran qoyulmuş şəhər və kəndlərimizin, ümumiyyətlə, Qarabağın və Şərqi Zəngəzurun bərpası, yenidən qurulması və inkişafıdır. Vətən müharibəsinin bitməsindən ötən iki il ərzində işğaldan azad edilmiş ərazilərdə aparılan bərpa və yenidənqurma işlərinin miqyası və əldə edilən nailiyyətlər artıq Müzəffər Ali Baş Komandan İlham Əliyevin tariximizə həm də qurucu Prezident kimi düşəcəyinə əminlik yaradır. İşğaldan azad edilmiş Füzulidə və Zəngilanda iki beynəlxalq hava limanının inşa edilib istifadəyə verilməsi, Laçında üçüncü beynəlxalq hava limanının inşaatının sürətlə davam etməsi, Zəngilan rayonunun Ağalı kəndində "ağıllı kənd"in inşa edilməsi və ilk doğma sakinlərinin artıq orada məskunlaşması və Füzuli rayonunun Dövlətyarlı kəndində "ağıllı kənd"in təməlinin qoyulması və tikinti işlərinin aparılması Prezident İlham Əliyevin böyük quruculuq baxışının ilk praktik nişanələridir. Bundan əlavə, Şuşaya gediş-gəlişi təmin edən Zəfər yolunun inşası, digər çoxsaylı yol-nəqliyyat və infrastruktur layihələrinin həyata keçirilməsi, xəstəxana, məktəb və sair sosial müəssisələrin yaradılması, hotellərin, elektrik stansiyalarının, yeni iş yerlərinin açılması da bu qəbildən olan quruculuq işləri sırasındadır.

2022-ci ilin 16 noyabrında Prezident İlham Əliyev Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük qayıdışa dair I Dövlət Proqramının təsdiq edilməsi haqqında sərəncam verdi. Burada məqsəd Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf strategiyasında bəyan edilmiş "İşğaldan azad olunmuş ərazilərə Böyük qayıdış" Milli Prioritetinin icra edilməsini təmin etməkdir. Bu o deməkdir ki, Prezident İlham Əliyev ərazilərimizə Böyük qayıdışı milli prioritet kimi müəyyən edib və bu məqsədlə ilk dövlət proqramı artıq təsdiq olunub. Beləliklə, Böyük qayıdış proqramı İlham Əliyevin quruculuq məfkurəsinin işğaldan azad edilmiş ərazilərimizdə sistemli və kompleks surətdə həyata keçirilməsini nəzərdə tutur.

Müvafiq olaraq, Böyük qayıdışa dair dövlət proqramı Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarına daxil olan ərazilərdə bərpa-quruculuq və əhalinin doğma torpaqlarında məskunlaşması ilə bağlı olan məsələləri, hədəfləri və inkişaf istiqamətlərini nəzərdə tutur. Xüsusi qeyd olunmalıdır ki, Böyük qayıdış çərçivəsində əhalinin doğma torpaqlarında məskunlaşması üçün ərazilərin ən müasir beynəlxalq standartlara uyğun "ağıllı kənd" və "ağıllı şəhər" konsepsiyaları əsasında bərpa və yenidən qurulması əsas hədəflərdən biridir. Buna görə də, ərazilərimizin yenidən qurulması və doğma sakinlərinin oraya Böyük qayıdışı müvafiq infrastrukturun yaradılması, iqtisadiyyatın yenidən qurulması, sosial inkişaf tədbirlərinin həyata keçirilməsi, ətraf mühitin qorunması kimi istiqamətlərdə innovativ yanaşmaların geniş tətbiqi ilə icra olunur.

Böyük qayıdışın sürətli icrasına əsas manеə torpaqlarımızın işğal dövründə Ermənistan tərəfindən kütləvi surətdə minalanmasıdır. Müharibə başa çatdıqdan sonra həm hərbçilər, həm mülki şəxslər arasında mina qurbanları vardır və onların sayı yüzlərlədir. Ona görə də Böyük qayıdış nəhəng miqyasda aparılan tikinti və bərpa işlərindən əlavə çox həssas, mürəkkəb, vaxt aparan və ölüm saçan minalanma probleminin həllini tələb edir. Məhz bununla bağlı olaraq insanlarımızın həyatının təhlükəsizliyini əsas götürən dövlət başçımız bu problemin həllini prioritetdə saxlayır, həm beynəlxalq görüş və tədbirlərdə bu məsələni gündəmə gətirir, həm də ərazilərin minalardan təmizlənməsi məqsədilə müasir texnologiyaların alınmasını və tətbiqini, müvafiq kadrların hazırlanmasını, mina təmizləmə işinin intensivləşdirilməsi və genişləndirilməsini təmin edən siyasət yürüdür.

Dövlət başçımız İlham Əliyev tariximizə Zəfər paradını qəbul etmiş Müzəffər Ali Baş Komandan kimi düşüb. Onun təşəbbüsü və rəhbərliyi ilə Qarabağ və Şərqi Zəngəzurda aparılan böyük quruculuq işləri, ümumiyyətlə, ölkəmizin inkişafı naminə çoxşaxəli fəaliyyəti İlham Əliyevin həm də qurucu Prezident olduğuna dəlalət edir. Bu böyük Zəfər və nəhəng quruculuq işləri olmasaydı, indi Azərbaycan da yəqin ki, indiki kimi güclü və qürurlu olmazdı, bəlkə taleyimiz də fərqli olardı. Bu isə onu deməyə əsas verir ki, İlham Əliyevin Müzəffər Ali Baş Komandan və qurucu Prezident kimi xalqımızın və dövlətimizin taleyində oynadığı rol parlaq və misilsizdir.

*Britaniyalı mütəfəkkir Volter Beyghot iki amilin - şəxsi keyfiyyətlərin və motivasiyanın liderin uğur qazana bilməsində önəmini vurğulayırdı. Prezident İlham Əliyevin də taleyüklü missiyanın öhdəsindən gəlməsində şəxsi liderlik keyfiyyətləri və xalqımızın vətən sevgisindən aldığı motivasiya bariz surətdə görünür.*

**Adil ƏLİYEV,**
**Milli Məclis Sədrinin müavini**